UOT 330.34; 330.35; 330.341.4:339.13; 330.341.44; 338.33; 334.012; 334.7

# MÜASİR DÖVRDƏ EKOLOJİ SAHİBKARLIĞIN İQTİSADİ İNKİŞAFA TƏSİRİ XÜSUSİYYƏTLƏRİ

[1,2]**Təranə Allahverdi qızı Səfərova**, [1,3]**Təranə Əsman qızı Əliyeva**
[1]Mingəçevir Dövlət Universiteti
[2]tarana.safarova@mdu.edu.az
[3]tarana.aliyeva@mdu.edu.az

***Xülasə:*** *Məlumdur ki, bazar iqtisadiyyatının əsas atributlarından biri sahibkarlıq fəaliyyətidir. Bazar münasibətləri müxtəlif ekoloji sferada genişlənir. İldən ilə ekoloji texnikanın satış dövriyyəsi artır, istehsalat tullantıları bazarı genişlənir. Bazar mexanizmi təbii sərvətlərin gəlirli sahələrinə investisiya qoyuluşuna şərait yaradır. Ekotexnikanın istehsalı, təmiz texnologiyaların və ekoloji məhsulların geniş tətbiqi bazarın çox hissəsini tutmaqla geniş bir silaha çevrilir. Bu baxımdan sahibkarlar təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsinə daha çox diqqət yetirirlər.*

***Açar sözlər:*** *ekoloji sfera. ekoloji texnika, ekoloji məhsul, ekoloji sahibkarlıq, təmiz texnologiya, investisiya qoyuluşu, təbiəti mühafizə tədbirləri*

## Giriş

Müasir dövrdə aparılan araşdırmalara nəzər salsaq, sahibkarlar və tədqiqatçılar tərəfindən ətraf mühit və ekologiya ilə bağlı problemlərin əvvəlki illərlə müqayisədə üstünlük təşkil etdiyini görərik. Bunun əsas səbəblərindən biri sənayeləşmə, əhali artımı və müasir həyatın yaratdığı ekoloji problemlərin yavaş-yavaş dünyanın sonunu gətirməsidir. Ətraf mühitin çirklənməsi, təbii ehtiyatların sürətli şəkildə istehlakı və biomüxtəlifliyin tükənməsi davamlı inkişafı iflic vəziyyətinə salır. Bu gün ekoloji problemlər bütün insan fəaliyyətinə birbaşa və dolayı yolla təsir edən mühüm amillərdən birinə çevrilir. Ətraf mühitin mühafizəsi və ətraf mühitə mənfi təsirlərin idarə edilməsi bilavasitə bütün insanların və canlıların gələcəyi ilə bağlıdır. Çünki insanlara xidmət etmək, müəssisələrin davamlılığı üçün çalışmaq və dünyaya iqtisadi töhfə vermək kimi vəzifələri həyata keçirmək yalnız təbiət mövcud olduğu müddətdə mümkündür. Buna da eko-sahibkarların sayının artırılması ilə nail olmaq mümkündür. Eko-sahibkarlar öz fəaliyyətlərində sözügedən məsələlərin hər birini nəzərə alır. Günümüzdə eko-sahibkarlar davamlı inkişaf və bir çox müəssisələrin yaranma mərhələsində, habelə ekoloji cəhətdən təmiz müəssisə kimi fəaliyyətə başlaması baxımından mühüm dəyişiklik vasitəsi kimi qəbul edilir. Qlobal miqyasda dayanıqlı şəkildə qurulmayan təşkilatlar dünyanın hansı nöqtəsində olmasından asılı olmayaraq, sağlamlığımıza mənfi təsir göstərir, ömrümüzü qısaldır və gələcək nəsillərə qoyacağımız mirası məhv edir. Qeyd edilən problemlərin get-gedə daha da artması ekoloji maarifləndirməni ortaya çıxarmışdır ki, bu da ətraf mühiti ən böyük qlobal bazarlardan birinə çevirmişdir. Nəticədə davamlı layihələr, texnologiyaya uyğun yenilikçi və yaradıcı sahibkarlar ön plana çıxır. Ətraf mühitə diqqət yetirən eko-sahibkarlıq kimi də tanınan yaşıl sahibkarlıq ekosistemdəki sahibkarların artıq yeni diqqət mərkəzinə çevrilir. Bu məqalədə də ekoloji cəhətdən təmiz, ətraf mühitə zərər verməyən və insan sağlamlığına təhlükə yaratmayan sahibkarlıq növündən, onun əhəmiyyətindən, hərəkətverici inkişaf qüvvələrindən, dayanıqlı inkişafda rolundan, günümüzdə ekoloji sahibkarlığın üzləşdiyi maneələrindən bəhs edilir [1].

## Ətraf mühitdə tarazlığın pozulma səbəbləri

Təbiətdə baş verən neqativ dəyişikliklər isə ekoloji təhlükələrin əmələ gəlməsinə səbəb olur. Belə ki, ətraf mühitdə tarazlığın pozulması təbiət ekosistemlərini deqradasiyaya (zəifləməyə) uğradır, antropogen dəyişikliklərin tempi artmış olur. Deməli, ətraf mühitin mühafizəsində insan

amilinin rolu getdikcə artır. Bu, ilk növbədə, hər bir cəmiyyət üzvünün ətraf mühitin yaxşılaşdırılmasında, mənəvi və hüquqi məsuliyyəti aşılamağı tələb edir. Araşdırmalar göstərir ki, ümumiyyətlə, ekologiyanın bütöv bir sistem kimi formalaşması və inkişafı XIX əsrin sonu və XX əsrin əvvəllərini əhatə edir [3].

Beynəlxalq və milli təhlükəsizliyin tərkib hissəsi olan ekoloji təhlükəsizlik özündə təbiətin mühafizəsi ilə yanaşı, təhlükəli təbii amillərin fəaliyyətindən insanın və bütövlükdə cəmiyyətin qorunması məsələlərini birləşdirir. Digər tərəfdən, istənilən ekoloji təhlükə və təhlükəli sayılan digər amillər - sosial, iqtisadi, texnoloji, təşkilatı, təsərrüfat və s. faktorların qarşılıqlı əlaqəsi ekoloji təhlükəsizliyin sistemli xarakterə malik olmasını əsaslandırır Beynəlxalq hüquq sistemində ekoloji təhlükəsizliyin təmin edilməsi ilə bağlı münasibətlər kompleks tənzimetmə obyektini təşkil edir. Yəni həmin münasibətlər beynəlxalq hüququn mühüm sahələrinin beynəlxalq ekologiya hüququ, beynəlxalq təhlükəsizlik hüququ, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi beynəlxalq olmaqla, qonşu dövlətlərlə sıx əməkdaşlığa malikdir. Bununla yanaşı, qonşu Ermənistanın Azərbaycan Respublikasına qarşı hal-hazırda da ekoloji terroru davam edir.Təcavüzkarlıq hərəkətləri digər sahələrdə olduğu kimi, beynəlxalq çaylardan istifadə üzrə də dövlətlərarası əməkdaşlığı mümkünsüz etmişdir. Bunları nəzərə alaraq, təcavüzkar Ermənistan tərəfindən Araz və Kür çaylarının ciddi çirkləndirilməsi faktları da beynəlxalq ictimaiyyət qarşısında qaldırılmaqla bərabər, beynəlxalq səviyyədə Ermənistana qarşı müvafiq tədbirlərin görülməsini tamamilə əsaslandırır. Bütövlükdə, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüz ekoloji tarazlığı ciddi şəkildə pozmaqla, müvafiq məsuliyyət yarada biləcək ekoloji hüquq pozuntusu kimi qiymətləndirilməlidir [2].

**Ekoloji sahibkarlığın özünəməxsus xüsusiyyətləri və formaları**

Müasir dövrdə istehlakçılar daha çox ekoloji təmiz, lakin baha məhsullara daha çox üstünlük verdikləri üçün buna uyğun olaraq firmalar da ekoloji təmiz məhsulların istehsalına daha çox üstünlük verirlər. Ekologiya müasir dövrdə əmtəələrə əlavə istehlak qiymətləri qoyulmasını tələb edir. İstehlakçılar ekoloji təmiz məhsul üçün əmtəələrə əlavə qiymət qoyulması ilə razılaşırlar və məhsulların ekolojiliyi haqqında informasiyaları çox həssaslıqla izləyirlər. Təmizlik və keyfiyyət standartları Almaniya və Hollandiyada daha çox yüksəkdir. Ekoloji tələblərə müvafiq olaraq hər bir ölkənin atributikası da dəyişir . Ekoloji sferada bazarın özünəməxsus xüsusyyətləri vardır. Belə ki, burada əmtəələr və təbii ehtiyyatlara mülkiyyət spesifik xarakter daşıyır. Təbiəti mühafizə tədbirləri həmişə maddi stimul vermir. Bu işlərin nəticəsində ekosistemlərə, təsərrüfata və əhaliyə dəyəcək ziyanın qarşısı alınır. Təbiəti mühafizəyə sərf olunmuş kapital qoyuluşu müəssisənin vəsaitindən çıxılır [6].

Bazar münasibətlərində ekoloji sahibkarlığın müxtəlif formaları kimi əsas və əlavə sahibkarlıqdan istifadə olunur.

Əsas sahibkarlıq ekoloji tələb və məhdudiyyətlə əlaqədar olaraq aşagıdakıları özündə birləşdirir:

- ekotexnika,avadanlıq,cihaz qurgular istehsalı;
- yeni və tullantı texnologiyaların, yeni maddələrin işlənməsi.

Əlavə ekoloji sahibkarlıq, yəni qeyri–ekoloji sahibkarlıq qeyri-ekoloji istehsalat sahələrini də əlaqələndirir:

- resursların xassə və keyfiyyətinin təkrar ardıcıl istifdəsini;
- tullantıların utilizasiyasını;
- faydalı qazıntıların çıxarılmasına kömək edən tədbirlər.

Qeyd olunanlardan başqa ekotəmiz məhsul istehsalı sferasını da sahibkarlığa aid etmək lazımdır [4].

Fikrimizcə, ekoloji sahibkarlığa əmlak mənsubiyyəti nöqteyi-nəzərindən də yanaşmaq olar. Bu da mülkiyyətə əsaslanır. Ekoloji sahibkarlıq fəaliyyət dairəsinə görə fərqlənir. Onlar aşağıdakılardır:

- istehsalat;
- kommersiya (mübadilə sahəsində fəliyyət);

- maliyyə (kreditlər, aksiyalar və s);
- vasitəçilik (komarketinq, ekoinformasiya, məsləhət xidmətləri);
- ekoloji sığorta;
- ekoloji lizinq.

Müasir dövrdə ekoloji sahibkarlıq biznesdə öz yerini tutmalı və həm iri, həm də orta və kiçik biznesdə təmsil olunmalıdır.

Ümumiyyətlə, ekoloji sahibkarlıq cəmiyyətin istehsalat imkanlarını sahəsini genişləndirməli və mövcud olan ehtiyatların istifadəsinə kömək etməlidir [6].

**Ekoloji sahibkarlığın səmərəliliyi**

Ekoloji sahibkarlığın davamlı inkişafa təsiri  yeni bazar ideyası irəli sürür.Bu ideya ekoloji marifləndirməni sürətləndirməklə biznesin necə aparacılığına dair yeni bir sahibkarlıq perspektivinin ortaya çıxmasına səbəb olur. Bu eyni zamanda  "ekoloji sahibkarlıq", "yaşıl sahibkarlıq" adlandırılır. Ekoloji sahibkarlar biznes ideyaları təkcə mənfəətlə deyil, həm də ətraf mühitə qayğı ilə yanaşan sahibkarlardır.Ətraf mühitin mühafizəsi ilə məşğul olan sahibkarların xüsusiyyətlərinə biznes təşəbbüslərinin irəli sürülməsi biznes imkanlarının müəyyən edilməsi və ətraf mühitə dəyən zərərin azaldılması daxildir.Digər tərəfdən ekoloji sahibkarlıq ekoloji cəhətdən uyğun bazar şəraitində mövcud olan iqtisadi imkanların aşkar edilməsi , qiymətləndirilməsi və istismarı prosesi kimi müəyyən edilir.Əsas məqsədi maksimum qazanc əldə etməyə yönələn ənənəvi sahibkarlardan fərqli olaraq, ekoloji sahibkarlıq iqtisadi, sosial və ekoloji aspektləri balanslaşdıran biznes  növüdür. Bu sahibkarlıq ətraf mühitin mühafizəsi təmiz texnologiyaların istifadəsi təkrar emal və cəmiyyətin  bilik və məlumatlılığın artırılması ekoloji cəhətdən təmiz iqtisadiyyatın yaradılması ilə bağlı layihələrin hazırlanması ilə həyata keçirilməsidir.Ekoloji sahibkarlıq insanların ətraf mühitə mənfi təsirini minumuma endirməklə hər kəs tərəfindən qəbul edilir. [6]

Ekoloji sahibkarlar məhsuldarlığı artırarkən tullantıları azaltmağın yollarını tapmalıdır ki, istehsal prosesinin tullantıları və məhsulun özü yeni xidmət məhsulunun xammalı ola bilsin. Tarazlı inkişaf konsepsiyası ətraf mühit nəzəriyyəsində mühüm əlamətdir, çünki o, sadəcə olaraq ətraf mühitin mühafizəsi tədbirlərinin nə üçün qəbul edilməli olduğunu və ya onların ən yaxşı şəkildə necə həyata keçirilə biləcəyini deyil, cəmiyyətin özünün necə təşkil edilməli olduğunu göstərir. Ekoloji sahibkarlığın əsasını təşkil edən eko-innovasiya və yaşıl texnologiyalar Avropa İttifaqının apardığı siyasətdə mühim rola sahibdir. 2011-ci ilin dekabrında Avropa Komissiyası ekosahibkarlığı gücləndirmək məqsədi ilə Eko-innovasiya Fəaliyyət Planını (EcoAP) qəbul etmişdir. Avropa İttifaqının 7-ci Ətraf Mühitin Mühafizəsi üzrə Fəaliyyət Proqramı (7EAP) 2050-ci ilə qədər "Planetin hüdudları daxilində yaxşı yaşamaq" vizyonunu, o cümlədən "Birliyi resursdan səmərəli istifadə edən, yaşıl və rəqabətədavamlı aşağı karbon iqtisadiyyatına çevirmək" zərurəti ortaya qoyur . Avropa İttifaqının inkişaf siyasəti təbii kapitalın davamlı idarə olunması yolu ilə artım, iş yerləri yaradan və yoxsulluğun azaldılmasına kömək edən inklüziv yaşıl iqtisadiyyata doğru transformasiyanı təşviq edir. Bu cür tədbirlər planının hazırlanması dünya dövlətlərinin davamlı inkişafa nail olmasında müsbət rol oynayır. Davamlı inkişafa nail olmaq üçün biznes subyektləri təkcə iqtisadi aspekt əsasında fəaliyyət göstərməməli, həm qısa, həm də uzunmüddətli perspektivdə sosial və ətraf mühitə təsirləri nəzərə almalıdır. Gələcəkdə yaşıl inkişaf yeni texnologiyaların istifadəsini, təşkilatlar və proseslərin harmoniyasını, ətraf mühitin mühafizəsi üçün effektiv hökumət siyasətinin aparılmasını və KOM-ların ardıcıl bu cür fəaliyyətlərə cəlb edilməsini tələb edir. Ətraf mühitə uyğun təşəbbüslər müasir dövrdə müsbət korporativ imic və ətraf mühitin mühafizəsini təmin edən normativ aktlar üçün model yaradır. Ətraf mühitin mühafizəsi sahəsində çalışan insanlar üçün vergilərin azaldılmasına imkan verən qanunlar sayəsində daha az vergi xərcləri yaranır, o cümlədən ticarət tərəfdaşlarının əməkdaşlığının sayı artır. Bəzi hallarda isə ətraf mühitə həssas olan sahibkarların ekoloji problemlərdən xəbərdar, lakin ekoloji bazar barəsində

natamam biliyə sahib olduğunun şahidi oluruq. Adətən bu cür sahibkarlar ekoloji biznes mərkəzli imkanları həyata keçirməyə meyilidirlər və eko-səmərəliliyə doğru can atırlar. Bunlardan fərqli olaraq ekoloji bazarda həm ekoloji problemlərdən, həm də ekoloji bazardan xəbərdar olan yaşıl sahibkarlar var. Onlar yaxşı qazanc perspektivləri göstərən ekoloji mərkəzli imkanlar axtarırlar. Lakin ekoloji sahibkarların ümumi xüsusiyyətləri var. Onlar təbii inqrediyentlərdən istifadə edərək sağlam məhsullar inkişaf etdirməyə çalışır, resursların istehlakını minimuma endirərək və ekoloji yükləri azaltmaqla sağlam istehsal proseslərini həyata keçirir, sağlam dəyərləri gənc nəslə aşılayır. Bu üstünlüklər təkcə yeni başlayan sahibkarlar üçün yeni imkanlar yaratmır, həm də daha davamlı biznes növü  üçün innovativ keçid yaratmaq potensialına malikdir. Gələcəyimiz üçün yatırım olan bu sahibkarlıq növünün inkişafında müəyyən maneələrlə də qarşılaşmaq mümkündür. Şik, Marksen və Freimann (2002) bu maneələri belə təsnif edir:

- məlumat çatışmazlığı;
- biznes məsləhətçilərinin məhdud biliklərinin olması;
- yeni başlayan sahibkarların potensial bazar haqqında məlumatlı olmaması;
- ekoloji cəhətdən təmiz müəssisələrin fəaliyyət göstərməməsi;
- davamlı müəssisələrin inkişafı üçün məhdud dövlət maliyyəsinin ayrılması. [5]

Bu tədqiqatçılardan əlavə, Baxter (2004) həvəsləndirici faktorların və bacarıqların olmamasını və tədbirlərin həyata keçirilməsinə nəzarət və dəstəyin olmaması kimi digər maneələri də vurğulayır. Ekoloji bazarın inkişafında durğunluq olsa da dünyanı iflic halına salan COVİD-19 pandemiyasından sonra təbiəti qoruyan məhsul və xidmətlərə maraq artıb. Çünki davamlı inkişafa əsaslanan layihə və ideyalar yaxın gələcəyin ən mühüm biznes sahələrini yaratmaq potensialına malikdir. Xüsusilə, son illərdə ekoloji sahibkarlar sosial şüurlu yaşıl investorlardan və populyar maliyyələşdirmə platformalarından fərqli təşviq və investisiyalar alırlar. Təbii resursları tükənməyə başlayan ölkələr yaşıl sahibkarlara yol açır. Onların biznesinə dəstək vermək məqdsədi ilə bir çox yeni qaydalar tətbiq edirlər.

Ölkəmizdə də gündən-günə artan sahibkarlıq ekosisteminin inkişafı qarşıdakı dövrlərdə yaşıl sahibkarlığı inkişaf etdirir. Bu sahəyə dəstək olmaq üçün yaşıl innovasiya əsaslı startapları davamlı gələcək hədəflərinin bir hissəsi kimi nəzərdən keçirmək olduqca əhəmiyyətlidir. Həm cəmiyyətin keyfiyyətinin yaxşılaşdırılması, həm də davamlı iqtisadiyyatın yaradılması ekoloji sahibkarların əsas hədəfidir. Təbiəti qoruyan və ekoloji cəhətdən təmiz sahibkarlıq ideyaları ilə seçilən ekoloji sahibkarlar gələcəyin ümid işığı, dünyanın və gələcək nəsillərin xilaskarıdır.

Ekoloji sahibkarlığın səmərəliliyini müxtəlif  səviyyələrdə təyin etmək olar [6]:

- cəmiyyət səviyyəsində - məşğulluq (həm artm, həm azalma ola bilər);
- region səviyyəsində təkrar xammalın (tullantıların) işlənməsi;
- firmalar səviyyəsində əlavə gəlirin əldə olunması.

Ekoloji sahibkarlığın səmərəliliyi ekoloji iqtisadi, sosial və onlara nail olmaq üçün zəruri xərclərin müqayisə edilməsidir. Bu müqayisənin nəticəsi sahibkarlığın səmərəsi xidməti kimi istifadə edilə bilər [5].

Fikrimizcə, istehsalın ekolojiləşdirilməsi praktiki cəhətdən yaxşı nəticələr verə bilər. Bu, əsasən tullantılardan istifadə edildikdə özünü qabarıq göstərir. Nəticədə, xalq istehlakı malllarının istehsalı artır, tullantıların yerləşdirilməsinə görə ödəmələr azalır, ətraf mühitə dəyən ziyanın qarşısı alınır, ucuz xammaldan istifadə edilir və müəssisələr əlavə gəlirr əldə edir. Bundan əlavə ilkin xammalın hasilatı üçün xərclər azalır.Ümumiyyətlə tullantılardan istifadənin ümumi səmərəsi müəssisənin və əhali istehlakının səmərəsindən istehsalatda və sahədə, sosial-ekoloji sferada yaranan səmərədən ibarət olur [4].

Xarici ölkələrdə yaşıl biznesin iş təcrübəsi göstərir ki, firmalar ətraf mühitin çirklənməsinin azaldılması hesabına yüksək gəlir əldə edirlər.

Ətraf mühitin formalaşması üzrə tədbirlər kapital qoyuluşunun etibarlı mənbəyinə çevrilir.

Ekoloji sahibkarlığın inkişaf etdirilməsi firmanın ekoloji təmirini artırır və ekoloji təfəkkürün formalaşmasına təsir göstərir [3].

Ekoloji sahibkarlığın inkişafı ekoloji menecmentdən istifadəyə marağı xeyli artırır. Bu fəaliyyətin həyata keçirilməsi müəssisədə işin təşkilindən asılıdır. Firmaların fəaliyyətdə təbiətdən səmərəli istifadə məsələsi nəzərə alınarsa, müəyyən şərtlər daxilində fayda vermiş  olar [6].

Sahibkarların ekoloji fəaliyyəti onların inteqrasiya məqsədlərinə nail olmaq bacarığından və imkanlarından asılıdır. Qeyd etdiklərimizin içərisində ekoloji bilik və təsərrüfatın elmi təşkili əsas yer tutur. Bunların həyata keçirilməsi isə firmanın uzunmüddətli inkişaf  strategiyasını hazırlamaqla mümkün ola bilər. Ekoloji menecmentin müəssisələrin bu işə marağından asılı olaraq müəyyən edilə bilər. Ekoloji məqsədlər firma əməkdaşlarının müəyyən qrupunun şəxsi marağını ifadə edə bilər, burada əsas məqsəd yaşıl imici təmin etmək olacaqdır. Bununla bərabər xərcləri azaltmaq, risklərin təsirini zəiflətmək və s. məsələlərin həlli də öz yerini tutmalıdır. Ətraf mühiti mühafizə sahəsində fəal siyasət yeridilməsinin daxili stimulu həm iqtisadi, həm də qeyri-iqtisadi ola bilər [1].

Məqsədlərdən asılı olaraq ekoloji menecment fəal, həm də qeyri-fəal, yəni müdafiə mövqeli növlərə bölünür. Aktiv mövqe hücum xarakterli olmaqla, ekomenecmentin fəaliyyəti aydın məqsədlə qurulur, bazara istiqamətli və müəyyən dərəcədə yaradıcı olur. Əksinə, qeyri-fəal menecment ancaq qanunvericiliyin tələblərinə istiqamətli olur, təbiəti mühafizə ilə məcburiyyət qarşısında məşğul olur [6].

Ekoloji menecment ekoloji imic yaratmaq hesabına rəqabət üstünlüklərini təmin edir, firmanın mikroiqliminə müsbət təsir göstərir,işçilərin  əməyə təsiri artır və işdən məmnun olurlar [2; 6].

**Nəticə**

Müasir dövrdə ekoloji sahibkarlıq sahibkarlıq fəaliyyətində yeni diqqət mərkəzinə çevrilməlidir. Məqalədə ekoloji cəhətdən təmiz ətraf mühitə ,insan sağlamlığına təhlükə yaratmayan sahibkarlıq növündən, onun əhəmiyyətindən, dayanıqlı inkişafın rolundan bəhs edilir. Həmçinin ekoloji sahibkarlığın inkişafına mənfi təsir edən manelər göstərilir.

Bazar münasibətləri şəraitində ekoloji sahibkarlığın formalarının, yəni əsas və əlavə sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi vacib məsələdir. Ekoloji sahibkarlıq biznesdə öz yerini tutmalı və iqtisadi inkişafa təsir göstərməlidir. Bu da istehsalın ekolojiləşdirilməsinə yaxşı şərait yarada bilər.

Dünyanın davamlı inkişafına töhfə vermək təbiət, iqtisadiyyat və cəmiyyətin tarazlığı üçün vacibdir. Sahibkarlıq anlayışı ilə ekologiya anlayışının birləşməsi eko-sahibkarlığı, yəni yaşıl sahibkarlığı ortaya çıxarmışdır. Məqsəd ətraf mühiti və yaşıllığı qorumaqla yanaşı, iqtisadi cəhətdən davamlı mühit yaratmaqdır. Bir sözlə, yaşıl sahibkarlıq və ya ekoloji sahibkarlıq cəmiyyətin gələcək ehtiyacları üçün fayda və dəyər istehsal edən bir vasitədir. Lakin yaşıl sahibkarlar təkcə ətraf mühitin qorunması ilə maraqlanmır. Eyni zamanda, onlar iqtisadi cəhətdən dayanıqlı dünya yaratmağı qarşıya məqsəd qoyur. Onlar yaşadıqları cəmiyyətin həyat keyfiyyətini yüksəltmək üçün biznes planlar hazırlayır, ətraf mühitə olan mənfi təsiri minimuma endirirlər. Digər sahibkarlardan fərqli olaraq, ekoloji sahibkarlar bazardakı imkanlardan yararlanır və sahibkarlığı inkişaf etdirirlər. Fəaliyyətləri arasında ekoturizm, təkrar emal, enerji səmərəliliyi, davamlı mobillik, üzvi kənd təsərrüfatı, bərpa olunan enerji kimi fəaliyyətlər yer alır. Qısaca belə deyə bilərik ki, ekoloji sahibkarlar davamlı gələcəyin təbliğatçısı, təbiətin isə qoruyucusudur.

**İstifadə edilmiş ədəbiyyat**

1. Ələkbərov, U.K. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları: dərslik / U.K.Ələkbərov; red. A.Əlizadə. - Bakı: Təhsil, 2017. - 176 s.

2. Eminov, F.B. Ekoloji fəaliyyətin idarə olunması: ekoloji menecment: dərs vəsaiti / F.B.Eminov, X.C.Məhərrəmova; elmi red. V.Z.Mehdiyeva; Azərbaycan Dövlət İqtisad Universiteti. - Bakı: Elm və təhsil, 2021. - 312 s.

3. Hüseynov, A.G.. Neft və ekoloji təhlükəsizlik: reallıq və perspektivlər: monoqrafiya / A.G.Hüseynov; elmi red. Z.Ə.Səmədzadə. - Bakı: Afpoliqraf, 2022. - 340 s.

4. Hüseynov, B.B. Azərbaycan təbiəti: dünən, bu gün, sabah: [ekoloji təbliğat, tədqiqat və maarifləndirmə] / B.B.Hüseynov; elmi red.: İ.Cəfərov, Q.T.Mustafayev; Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi. - Bakı: Vətənoğlu NPŞ MMC, 2015. - 496 s.

5. İbrahimov, İ.H. Ətraf mühitin iqtisadiyyatı. Bakı: Bakı Biznes Universiteti nəşriyyatı, 2015, 357 s.

6. Sosial ekologiya (sosioekologiya): dərslik / Q.Ş.Məmmədov [et al.]; elmi red.: Ə.B.Məmmədov, F.Ə.Mustafayev. - Bakı: Radius, 2015. - 670 s.

## CHARACTERISTICS OF THE IMPACT OF ECONOMIC ENTREPRENEURSHIP ON ECONOMIC DEVELOPMENT IN THE MODERN PERIOD

**T.Safarova, TAliyeva**
Mingachevir State University

***Abstract:*** *It is known that one of the main attributes of a market economy is entrepreneurial activity. Market relations are expanding in various environmental areas, the turnover of the sale of environmental equipment is increasing year by year, and the market for industrial waste is expanding. The market mechanism creates conditions for investing natural resources in profitable areas. Green technology production is becoming a broad weapon by capturing a large market share and wide application of clean technologies and environmental products. In this regard, entrepreneurs pay more attention to the implementation of environmental protection measures.*

***Keywords:*** *ecological sphere. environmental technology, environmental product, environmental entrepreneurship, environmentally friendly technologies, investments, environmental protection measures*

## ХАРАКТЕРИСТИКА ВЛИЯНИЯ ХОЗЯЙСТВЕННОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ В СОВРЕМЕННЫЙ ПЕРИОД

**Т.А.Сафарова, Т.А.Алиева**
Мингячевирский государственный университет

***Резюме:*** *Известно, что одним из основных атрибутов рыночной экономики является предпринимательская деятельность. Расширяются рыночные отношения в различных экологических сферах, год за годом увеличивается оборот реализации экологического оборудования, расширяется рынок промышленных отходов. Рыночный механизм создает условия для инвестирования природных ресурсов в прибыльные направления. Производство экотехники становится широким оружием за счет захвата большой доли рынка и широкого применения чистых технологий и экологических продуктов. В связи с этим предприниматели уделяют больше внимания реализации природоохранных мероприятий.*

***Ключевые слова:*** *экологическая сфера, экологическая техника, экологический продукт, экологическое предпринимательство, экологически чистые технологии, инвестиции, природоохранные мероприятия*

**Elmi redaktor: i.e.d., prof. V.Əyyubov**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 29.08.2024**
**Çapa qəbul edilib: 10.09.2024**